# BMT-NİN SÜLH MİSSİYASI VƏ VETO HÜQUQU ƏSAS PROBLEM KİMİ*

## *Birleşmiş Milletlerin Barışı Sağlama Misyonu ve Yapısal Bir Sorun Olarak Veto Hakkı*

## *United Nations Peacekeeping Mission and the Veto as a Structural Problem*

***Ramile DADAŞOVA*****

***Öz***

*II. Dünya Savaşı sonrası ortaya çıkmış,* d*ünyada barış ve istikrarı sağlamakla görevli bir örgüt olarak Birleşmiş Milletlerin bugünkü yapısı ve işleyişi bu misyonu objektif ve verimli bir şekilde yerine getirememektedir. Güvenlik Konseyi›nin daimi üyeleri arasında jeopolitik çıkarlardan doğan çelişkilerin varlığı BM mekanizmasında veto hakkı uluslararası ve bölgesel sorunların çözümüne engel oluyor. Öncelikli olarak veto hakkı, Birleşmiş Milletlerde eşitlik ilkesini ihlal ediyor. İkincisi, Güvenlik Konseyi›nin daimi ve geçici üyeleri, Soğuk Savaş dönemi ile uyumlu bölgeler tarafından seçilir. Üçüncüsü, silah satışlarına gösterdikleri ilgi nedeniyle, kalıcı üyeler çözüm sürecini veto etmişlerdir. Dördüncüsü, Genel Kurul üyeleri ile Güvenlik Konseyi üyeleri arasındaki eşitsizlik Güvenlik Konseyi›nin en büyük eksikliklerinden biridir.*

***Anahtar Kelimeler:*** *Veto Hakkı, Birleşmiş Milletler, Güvenlik Konseyi, Daimi Üyeler, Jeopolitik Çıkarlar.*

***Abstract***

*The UN, which was established to protect international peace and security after the Second World War, is not properly fulfilling its mission today. The first, right of veto violates the principle of sovereign equality of the states in the United Nations. The second, permanent and temporary members of the UNSC are selected from the regions according to the Cold War period and injustice is clearly seen in this distribution of rights. The third, rapid increase of armament, interest of selling weapons to the conflicting countries don't allow the UNSC to fulfill its responsibilities. The fourth, inequality between numbers of members of the UNSC and GA is one of the main problems of the UN system.*

***Keywords:*** *Veto Right, United Nations, Security Council, Permanent Members, Geopolitical Interests.*

* Makale Gönderim Tarihi: 09.04.2018 – Makale Kabul Tarihi: 09.05.2018

** Doç. Dr., Azerbaycan Milli İlimler Akademisi, e-posta: dadashova.ramila@rambler.ru

## Giriş

Beynəlxalq münasibətlərin sabit inkişafı üçün dövlətləri beynəlxalq hüquq normalarına riayət etməyə məcbur etmək, günahkar tərəfə sanksiyaları tətbiq etmək və s. baxımdan BMT sistemi münaqişələrin beynəlxalq hüquq normalarına müvafiq nizama salınmasına kömək edə bilən mexanizmə malikdir. Lakin BMT-nin regional münaqişələrin nizama salınmasında fəaliyyətinin zəifliyi, qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsi bu təşkilatda siyasi böhran olduğunu göstərir. Təşkilatın fəaliyyətində kiçik dövlətlərin hüquqları veto hüquqlu dövlətlərin maraqlarına uyğun olaraq əksər halda məhdudlaşdırılır. Təhlükəsizlik Şurasının veto hüququna sahib üzvləri BMT-nin əsas orqanlarının hər birində iştirak edərək öz milli maraqlarına müvafiq olaraq qərarların qəbul edilməsinə təsir edirlər. Beynəlxalq təhlükəsizlik sisteminin bir hegemon dövlət tərəfindən birtərəfli qaydada deyil, dünya dövlətlərinin birgə səyləri ilə təkmilləşdirilməsi hazırda aktuallıq kəsb edir. BMT-də qərarların qəbul edilməsi prosesinə ABŞ-ın, yaxud Rusiyanın, yaxud da digər daimi üzvün təsir etməsi, bu dövlətlərin başqa dövlətlərin daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etmələri, beynəlxalq hüquq normalarına riayət edilməməsi nüfuzdan düşmüş BMT-nin süqutuna səbəb ola bilər. Məlum olduğu kimi, ABŞ-ın "Ərəb baharı" adı altında başladığı proseslər neftlə zəngin olan, əlverişli coğrafi-siyasi mövqedə yerləşən  Yaxın və Orta Şərqin işğalına yönəldilmişdir. Eyni zamanda, Rusiya yeni müstəqil dövlətlər üzərində öz hökmranlığını bərpa etmək iddialarından imtina etmir. Rusiya Cənubi Qafqazda  olan münaqişələrdə, o cümlədən Ermənistan, Aərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçilik missiyasından istifadə edərək, geosiyasi, geoiqtisadi və başqa maraqlarını təmin etmək üçün faydalanmağa çalışır, Cənubi Osetiyanın, Abxaziyanın müstəqilliyini tanımaqla Gürcüstanın, Krımı ilhaq etməklə Ukraynanın ərazi bütövlüyünü pozur, Moldovada Dnestryanı bölgədə münaqişənin həllini öz əlinə almağa çalışır.

## Təhlükəsizlik Şurasının Fəaliyyətində Olan Nöqsanlar

BMT-nin bütün üzvlərinin nümayəndəli orqanı olan Baş Məclis Təhlükəsizlik Şurasının diqqətini sülh və təhlükəsizliyin pozulmasına təhlükə yarada bilən problemlərə yönəltsə də, beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsində əsas məsuliyyət Təhlükəsizlik Şurasının üzərinə düşür. Təhlükəsizlik Şurasının səlahiyyətləri BMT Nizamnaməsinin 24-cü maddəsinin 1-ci bəndində aşağıdakı kimi ifadə olunmuşdur: “BMT-nin cəld və səmərəli hərəkətlərini təmin etmək üçün onun üzvləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına görə başlıca məsuliyyəti Təhlükəsizlik Şurasının üzərinə qoyur və məsuliyyətdən irəli gələn vəzifələrini yerinə yetirərkən Təhlükəsizlik Şurasının onların adından çıxış etməsinə razılaşırlar”.[1] Həmin maddənin 2-ci bəndində isə yazılır ki, Təhlükəsizlik Şurası BMT-nin məqsəd və prinsiplərinə müvafiq hərəkət edir. Bu vəzifələri icra etmək üçün Təhlükəsizlik Şurasına verilən konkret səlahiyyətlər VI, VII, VIII və XII fəsillərdə öz əksini tapmışdır.[2] Nizamnamənin 25-ci maddəsinə müvafiq olaraq BMT-nin üzvləri Təhlükəsizlik Şurasının qərarlarına tabe olmalı və onları yerinə yetirməlidirlər.[3] BMT-nin yaradıcıları olan ABŞ, Böyük Britaniya, SSRİ, sonralar Fransa, Çin beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsini onun əsas orqanı kimi Təhlükəsizlik Şurasına həvalə etmişlər. Təhlükəsizlik Şurası Nizamnaməyə uyğun olaraq hüquqi aktlar qəbul edir. Təcavüzkar dövlətin cəzalandırılması veto hüquqlu beş daimi üzvün əlində olduğu üçün Təhlükəsizlik Şurasının fəaliyyəti müəyyən dərəcədə onların operativ işindən asılıdır. BMT-nin üzv dövlətlərinin nümayəndəli orqanı kimi fəaliyyət göstərən Təhlükəsizlik Şurası tövsiyə verməklə yanaşı, beynəlxalq sülh və təhlükəsizliyi bərpa etmək üçün BMT adından embarqo, sanksiyalar, silahlı qüvvə tətbiq edilməsi barədə hüquqi əsaslı qərarlar qəbul edə bilər.[4] BMT

1 *Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi*, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, Bakı, s. 19.
2 *Aynı* yer.
3 *Aynı* yer.
4 *Basic Facts about the United Nations,* United Nations Department of Public Information, New York 2000, s. 69.

Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq Təhlükəsizlik Şurası sülhə təcavüz aktının olduğunu müəyyən edir, tövsiyələr verir, beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması üçün 41 və 42-ci maddələrə müvafiq tədbirlər görülməsi barədə qərar qəbul edir.[5] Əvvəlcə Təhlükəsizlik Şurası dinc yolla tədbirlər həyata keçirir. Nizamnamənin 40-cı maddəsində yazılır: "Vəziyyətin pisləşməsinin qarşısını almaq məqsədilə Təhlükəsizlik Şurası tövsiyələr verməzdən, yaxud 39-cu maddədə nəzərdə tutulmuş tədbirlər barədə qərar qəbul etməzdən əvvəl, maraqlı tərəflərdən onun zəruri hesab etdiyi müvəqqəti tədbirlərin yerinə yetirilməsini tələb edə bilər. Bu müvəqqəti tədbirlər maraqlı tərəflərin hüquqlarına, mövqelərinə xələl gətirməməlidir."[6] 41-ci maddəyə görə Təhlükəsizlik Şurası günahkar tərəfə qarşı iqtisadi sanksiya və silahlı qüvvədən istifadə edə bilər.[7] Əgər yuxarıda sadalanan tədbirlər kifayət etməzsə, 42-ci maddə tətbiq edilir. Yəni, Təhlükəsizlik Şurası hava, dəniz və ya quru qüvvələrinin vasitəsilə beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri olan tədbirləri görə bilər.[8] Beynəlxalq hüquq normalarının pozulması bütün subyektlərin maraqlarına toxunduğu üçün Təhlükəsizlik Şurasının sanksiyaları ilə yanaşı UNESCO, BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və digər ixtisaslaşmış qurumlar da sanksiyalar qəbul edə bilər. Bütün sanksiyaların məqsədi hüquq pozuntularını xəbərdar etmək olduğu üçün bu vasitələrdən istifadə etmək qanunauyğundur. Belə ki, sanksiyalar günahkar dövləti hüquq normalarına əməl etməyə məcbur edir, sülh və təhlükəsizliyin qorunub saxlanılmasına müsbət təsir göstərir.

Təhlükəsizlik Şurası bütün mübahisələrə deyil, ancaq beynəlxalq sülh və təhlükəsizliyi hədələyən mübahisələrə baxır. Təhlükəsizlik Şurasının iclasları açıq və qapalı formatda keçirilə bilər.

Təhlükəsizlik Şurası 15 üzvdən ibarətdir. ABŞ, Böyük

5 BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, *a.g.e.*, s. 26-27.
6 BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, *a.g.e.*, s. 26.
7 BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, *a.g.e.*, s. 27.
8 *Aynı yer.*

Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Rusiya, Fransa, Çin Təhlükəsizlik Şurasının daimi üzvləridir. Daimi üzvlərin veto hüququ Təhlükəsizlik Şurasının ən böyük nöqsanlarından biridir və bu güc qurumu qeyri-demokratik etmişdir. BMT yaradılandan ABŞ ənənəvi olaraq veto hüququndan öz maraqlarını müdafiə etmək üçün istifadə etmişdir. ABŞ siyasi xadimləri və hüquqşünasları BMT-nin "hirsli veto" hüququndan istifadə etməsi barədə yazırlar.[9] SSRİ də veto hüququndan istifadə edərək "arzuedilməz" qətnamələrin qarşısını almışdı. Soyuq müharibə illərində Sovet İttifaqı digər daimi üzvlərlə müqayisədə daha çox veto gücündən istifadə etmişdi. 1946-cı ildən 1991-ci ilə qədər SSRİ 119 qətnaməyə veto qoymuşdu.[10] Sonrakı illərdə də belə vəziyyət davam etdi. Rusiya Kipr haqqında iki qətnaməyə veto qoydu, digər 14 üzv isə qətnamənin lehinə səs verdi. Bu, Rusiyanın Balkan bölgəsinə olan maraqları ilə bağlı idi. Rusiya Bosniya və Herseqovina barədə qətnaməyə də veto qoydu. 2008-ci ildə Rusiya Gürcüstan böhranı ilə bağlı qətnaməyə veto qoydu və BMT-nin Müşahidə Missiyasının Gürcüstandakı və Abxaziyanın mandatını genişləndirmək niyyətində olan bir qərarın qəbul edilməsinə mane oldu. Bundan başqa, Rusiya Çin ilə birlikdə Birma və Zimbabvedə insan hüquqlarının pozulmasının pislənməsi barədə Təhlükəsizlik Şurasının qətnaməsinə veto qoydu. Çünki bu dövlətlərin hər ikisinin Rusiya və Çin ilə sıx iqtisadi əlaqələri vardır. 1971-ci ildən Çin Xalq Respublikası ilə əvəz edilməsindən sonra Çin Respublikası veto gücündən altı dəfə istifadə etmişdir.[11] Onlardan dördü Soyuq müharibə dövrü başa çatdıqdan sonra həyata keçirilmişdir. Yuxarıda qeyd edildiyi kimi, Çin Birma və Zimbabvedəki insan hüquqlarının pozulmasını pisləyən iki qətnamənin veto edilməsi üçün Rusiyaya qoşuldu. Rusiya kimi Çin də bu iki ölkədə iqtisadi maraqlara sahibdir. Birma Çin üçün də siyasi cəhətdən vacibdir və onun hökuməti hakimiyyətin mövcud səviyyəsinə görə Çindən çox asılıdır. Bundan başqa, 1997-ci ildə Çin Qvatemalada atəşkəsin yoxlanılması üçün müşahidəçilərin yerləşdirilməsinə icazə verməyi nəzərdə tutan qətnaməyə, 1999-cu ildə BMT sülhməramlılarının

9 Федоров В.Н., Ефимов Г.К. ООН и поддержание международного мира. М.: Знание, 1969, s. 40-45.

10 Okhovat Sahar, "The United Nations Security Council: Its Veto Power and Its Reform", *The Centre for Peace and Conflict Studies,* Cilt: 1, Sayı: 15, Australia 2012, s. 12.

11 *Aynı yer.*

Makedoniyada yerləşməsi barədə qətnaməyə veto qoydu. Bu mənfi səslərin hər ikisinin səbəbi Makedoniya və Qvatemalanın Tayvan ilə siyasi əlaqələri idi. Beləliklə, Çin veto hüququndan Tayvanı müstəqil suveren dövlət olaraq tanıyan ölkələri cəzalandırmaq üçün siyasi silah olaraq istifadə etdi.[12]

Son dəfə Fransa və Böyük Britaniya veto hüququndan 1989-cu ildə Panamada şəraitə dair ABŞ-la birgə istifadə etmişlər. Bu iki ölkə son 20 ildə heç bir qətnaməyə veto qoymamışlar.[13] Lakin Fransa səsvermə üçün Təhlükəsizlik Şurasına gələn layihənin qarşısını almaq məqsədilə bir neçə dəfə veto tətbiq etmişdir.

Rusiyadan sonra ABŞ veto hüququndan ən çox istifadə edən ikinci ölkədir. Ən əsası isə Soyuq müharibə başa çatdıqdan sonra veto hüququndan ən çox ABŞ istifadə etmişdir. Bu ölkə BMT Təhlükəsizlik Şurasının yaradılmasından bəri 83 qətnamə layihəsinə veto qoymuşdur. Onlardan 14-ü 1991-ci ildən sonrakı dövrə aiddir.[14] 14 qətnamədən 13-ü İsrail ilə bağlı qətnamə idi və onlara veto qoymaqla, ABŞ Yaxın Şərqdə strateji müttəfiqi olan İsrail üçün siyasi müdafiəni təmin etmişdir. Şərqi Qüdsdəki İsrail qəsəbələrinin fəaliyyətini pisləyən qətnamələr, Qəzzadan İsrail qoşunlarının çıxarılmasının tələb edilməsi, təhlükəsizlik divarının tikintisinin qanunsuz olduğunu və İsrail tərəfindən həyata keçirilən hərəkətlərin qınandığı bir çox çağırışlara ABŞ tərəfindən veto qoyulmuşdur.[15] ABŞ ən azı 130 ölkə tərəfindən dəstəklənən və İsrailin məskunlaşma fəaliyyətlərini pisləyən və onların dayandırılmasını tələb edən qətnaməyə də veto qoymuşdur.[16] Bu qətnamə ərəb dünyası ilə daha yaxşı əlaqəyə malik olmasına dair vədlərinə baxmayaraq, Barak Obama administrasiyasının veto qoyduğu ilk qətnamə idi. Çikaqo Universitetində Beynəlxalq Təhlükəsizlik Siyasəti Proqramının müdiri Dr. Conohn Mirşeymerin sözlərinə görə, ABŞ İsrail lobbisinin təzyiqləri səbəbindən bu qərara veto qoymuşdu.[17] Soyuq müharibə dövrünün sona



12 Sahar, *a.g.e.*, s. 12-13.
13 Sahar, *a.g.e.*, s. 13.
14 Sahar, *a.g.e.*, s. 14.
15 Sahar, *a.g.e.*, s. 13.
16 Sahar, *a.g.e.*, s. 14.
17 *Aynı yer.*

çatmasından sonra ABŞ-ın veto qoyduğu qətnamələrdən yalnız biri İsrail-Fələstin münaqişəsinə aid deyildir. Belə ki, 2002-ci il 30 iyun tarixdə ABŞ Bosniyadakı BMT-nin sülhməramlı mandatını yeniləmək barədə qətnaməyə veto qoydu. Amerika nümayəndəsi bu qərarın «Bosniya xalqına yönəldilmədiyini», amerikalı sülhməramlıları Beynəlxalq Məhkəmənin məsuliyyətindən azad etmək tələbi ilə verildiyini bəyan etdi.[18]

ABŞ qərarların qəbul edilməsində təzyiq vasitəsi kimi BMT-ni daha çox maliyyələşdirməsindən də yararlanır. Ölkələr üzrə üzvlük haqlarının təsnifatını üç ildən bir Baş Məclis müəyyənləşdirir. Bu zaman üzv ölkələrin iqtisadiyyatının inkişaf səviyyəsi və əhalisinin sayı nəzərə alınır. BMT-ni ən çox maliyyələşdirən dövlət ABŞ-dır. Üzvlük haqqından əlavə təşkilatı fərdi maliyyələşdirir. O, BMT büdcəsinin 22 faizini ödəyir. Bu, BMT-ni maliyyələşdirmə üçün müəyyənləşdirilən ən yüksək həddir. ABŞ təxminən hər il fərdi qaydada 10 milyard dollar, müntəzəm üzvlük haqqı isə 600 milyon dollar verir. Bunun 3,8 milyard dolları sülhməramlı missiyalara, 5,5 milyard dolları müxtəlif təşkilatlara və proqramlara yönəldilir.[19] 2017-ci ilin dekabr ayında ABŞ 2018-2019-cu illər üçün BMT-yə fərdi üzvlük haqqını 285 milyon dollar azaltdı. Bunun da səbəbi Baş Məclisin ABŞ-ın Qüdsü İsrailin paytaxtı kimi tanımaması idi.[20]

Bundan əlavə, üç dəfə Təhlükəsizlik Şurasının bütün digər on dörd üzvü layihələri dəstəklədiyi halda ABŞ layihələrin qəbuluna veto qoymuşdu. Bu faktlar ABŞ-ın İsrail-Fələstin münaqişəsinə qarşı mövqeyindən siyasi təcrid dərəcəsini göstərir. Həmçinin, veto qüvvəsinin ABŞ kimi bir ölkəyə xalqın qətnamələrinin qarşısını almaq üçün necə imkan verdiyini nümayiş etdirir. 2002-ci ilin iyulunda ABŞ diplomatı Con Neqropanti «Neqropanti doktrinası» adı ilə bir şərh verdi.[21] O, İsrail-Fələstin münaqişəsinə dair qətnamə layihəsinin dörd elementdən ibarət olacağını açıq şəkildə ifadə etdi, bildirdi ki, əks halda ABŞ qətnaməyə veto qoyacaqdır. Bunlar

18 Sahar, *a.g.e.*, s. 15.

19 "'Попытка продемонстрировать влияние', почему США сократили индивидуальный взнос в бюджет ООН", *Russian.rt.com*, https://russian.rt.com/world/article/464228-ssha-oon-shantaj, (Giriş Tarixi: 25.12.2017).

20 *Aynı yer.*

21 Sahar, *a.g.e.*, s. 14.

aşağıdakılar idi: (a) terror aktlarını açıq şəkildə qınayırıq; (b) terrorda məsul olan Aqsa Martirs Briqadası, İslam Cihadı və Həmas cəzalandırılmalıdır; (c) bütün tərəfləri siyasi nizama salmaya çağırırıq və (d) 2000-ci ilin sentyabr ayında İsrail qüvvələrinin öz mövqelərinə çıxarılmasına dair hər hansı bir çağırış şərt kimi təhlükəsizlik şəraitinin yaxşılaşdırılmasını tələb etməlidir. Aqsa Martirs Briqadası, İslam Cihadı və Həması qınayan heç bir qətnamə layihəsi olmadı, ancaq İsrail və Fələstinin hərəkətlərini qınayan bəzi layihələr var idi. Onlara da ABŞ tərəfindən veto qoyuldu.[22] Bu faktlar veto hüququ qüvvəsinin daimi üzvlərə qətnamələrin qarşısını almaq üçün necə imkan verdiyini nümayiş etdirir.

Artıq veto qoymaq cəlbediciliyini itirmişdir. İndi daimi üzvlər Təhlükəsizlik Şurasına gələn mübahisəli bir məsələnin qarşısını almaq üçün lobbiçilik edirlər. Avstraliya tədqiqatçısı John Langmor qeyd edir ki, Çin beynəlxalq ictimaiyyətin fikrini nəzərə alaraq 1973-cü ildə beynəlxalq ictimaiyyətə Liviyaya uçuşa qadağa qoyulması barədə BMT Təhlükəsizlik Şurasının qətnaməsinə veto qoymadı.[23] Çin, Rusiya, Almaniya, Braziliya və Hindistanla birlikdə yalnız səs verməndən qaçdı. Bu, daimi üzvlərin vetodan istifadə etmələrini nəzərə çarpdırmaması və beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün maneə kimi görünməmələri üçün lazım idi.

Təhlükəsizlik Şurasının iki il müddətinə seçilən digər 10 müvəqqəti üzvünü Baş Məclis BMT üzvləri arasından seçir. Veto hüququ olmayan müvəqqəti üzvlərin hüquqları məhduddur.

Təhlükəsizlik Şurasın digər ikinci nöqsan üzvlərin regional gruplara görə ədalətsiz qaydada seçilməsidir. Regional qruplar 5 ana qrup olmaqla ümumi 8 kateqoriyaya bölünür. 5 ana qrup bunlardır: 54 üzvlü Afrika qrupu, 53 üzvlü Asiya-Sakit okean qrupu, 23 üzvlü Şərq Avropa qrupu, 33 üzvlü Latın Amerikası və Karib qrupu və 28 üzvlü Qərbi Avropa və digərləri. Hamısı Afrika ölkələrindən ibarət olan 54 üzvlü Afrika qrupunun, qruplar arasındakı ən böyük qrup olmasına baxmayaraq, heç bir daimi üzvü Təhlükəsizlik

22 *Aynı yer.*
23 Sahar, *a.g.e.*, s. 15.

Şurasında yoxdur. 3 müvəqqəti üzvü vardır. 53 üzvlü Asiya-Sakit okean qrupundan (Kipr Respublikası də bu qrupdadır) 1 daimi üzv (Çin Xalq Respublikası), 2 müvəqqəti üzv vardır. 33 üzvlü ən sıx üçüncü qrup olan Latın Amerikası və Karib qrupu dövlətlərinin heç bir daimi üzvü yoxdur, yalnız 2 müvəqqəti üzvü vardır və ən əlverişsiz qrupdur. Ən kiçik ikinci qrup olan 28 üzvlü Qərbi Avropa və digərləri qrupuna daxil olan dövlətlərin 3 daimi üzvünün (ABŞ, Böyük Britaniya, Fransa) və 2 müvəqqəti üzvünün olması diqqəti çəkir. Bu qrupda Qərbi Avropa ölkələrindən başqa Avstraliya, Kanada, İsrail, Yeni Zelandiya və Türkiyə də vardır. Ayrıca heç bir qrupa daxil olmayan ABŞ bu qrupun müşahidəçi üzvüdür. Şərqi Avropa və Qafqazda olan ölkələrin meydana gətirdiyi 23 üzvlü Şərqi Avropa qrupunun 1 daimi (Rusiya Federasiyası) 1 müvəqqəti üzvlük hüququ var.[24] Beləliklə, BMT-nin regional qruplarına görə Təhlükəsizlik Şurasının daimi və müvəqqəti üzvləri aşağıdakı kimi qruplaşdırılır: Afrika qrupundan 3 müvəqqəti üzv, Asiya-Sakit okean qrupundan 1 daimi, 2 müvəqqəti üzv, Şərqi Avropa qrupundan 1 daimi, 1 müvəqqəti üzv, Latın Amerikası və Karib qrupundan 2 müvəqqəti üzv, Qərbi Avropa və digər qruplardan 3 daimi, 2 müvəqqəti üzv seçilir. Bu 5 ana qrupdan başqa, BMT üzvü olub heç bir qrupa daxil olmayan dövlətlər, yəni müşahidəçi dövlətlər (Fələstin) və mübahisəli bölgələr (Şimali Kipr Türk Respublikası) kateqoriyaları da vardır. Kiribati Respublikası (Sakit okeanda yerləşən ada dövləti) isə bütün bu kateqoriyaların xaricində qalan yeganə dövlətdir.[25] Göründüyü kimi heç bir müsəlman dövlətinin Təhlükəsizlik Şurasında daimi üzvlük hüququ yoxdur. BMT Təhlükəsizlik Şurasının iki daimi üzvü Qərbi Avropa ölkəsidir. Bunlar Böyük Britaniya və Fransadır. Afrikanın, ikinci ən sıx qitə olduğu halda, eləcə də Latın Amerikası və Karib regionunun daimi təmsilçiləri yoxdur.

Üçüncüsü, Təhlükəsizlik Şurasının zəif nöqtəsi olaraq qeyd olunmalıdır ki, daimi üzvlər, ən azı son on ildə, ən çox silah ixrac edən ölkələr olmuşlar. 2000-ci ildən 2010-cu ilədək

24 Ozan Örmeci, "Birleşmiş Milletler Güvenlik Konseyi ve Bölgesel Gruplar", *Ydemokrat*, http://ydemokrat.blogspot.com/2014/10/birlesmis-milletler-guvenlik-konseyi-ve.html, (Giriş Tarixi: 17.10.2014).

25 *Aynı yer.*

həmin dövlətlər adi silahların ixracının 71 faizində məsuliyyət daşıyırlar.[26] Nizamnamənin 26-cı maddəsində beynəlxalq sülhün və təhlükəsizliyin qorunması məqsədi ilə yazılır: «Dünyanın insan və iqtisadi resurslarını silah işi üçün ən az miqdarda ayırmaqla, beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunmasına və qorunub saxlanmasına dəstək vermək məqsədilə Təhlükəsizlik Şurası, 47-ci maddədə nəzərdə tutulmuş Hərbi Qərargah Komitəsinin köməyi ilə Birləşmiş Millətlər Təşkilatının üzvlərinə təqdim olunmaq üçün silahların nizama salınması sisteminin yaradılması üzrə planların tərtib edilməsinə görə məsuliyyət daşıyır."[27] Ona görə də, Təhlükəsizlik Şurasının 5 daimi üzvü silahlanma tənzimləməsi sisteminin qurulmasına məsuldur. Silahlanmanın artması, münaqişə yaşayan dövlətlərə silah satmaları marağı münaqişələrin nizama salınmasında Təhlükəsizlik Şurasının öz məsuliyyətini yerinə yetirməsinə imkan vermir.

Təhlükəsizlik Şurasından başqa digər orqanların, hətta Baş Məclisin də hərbi qüvvə yaratmaq, maliyyələşdirmək, ondan istifadə etmək hüququ yoxdur. Bu nöqteyi-nəzərdən Təhlükəsizlik Şurasının səlahiyyətləri genişdir və bunu kollektiv təhlükəsizlikdə səmərəli istiqamətə yönəltmək lazımdır. Təhlükəsizlik Şurasının fəaliyyətinin səmərəliliyini artırmaq, sülh əməliyyatlarının keçirilməsini tezləşdirmək üçün Hərbi Qərargah Komitəsinin üzərinə böyük vəzifə düşür. Bu barədə 46-cı maddədə yazılır: "Silahlı qüvvələrin tətbiqi planları Təhlükəsizlik Şurası tərəfindən Hərbi Qərargah Komitəsinin köməyi ilə tərtib edilir."[28]

Baş Məclis Təhlükəsizlik Şurasından fərqli olaraq, BMT üzvlərinin daha çox nümayəndəli orqanı olsa da, beynəlxalq münasibətlər sistemində sülh və təhlükəsizliyi müdafiə etməkdə onun rolu məhduddur. Baş Məclisin sessiyalarında böyük dövlətlər kimi, kiçik dövlətlər də iştirak edir, beynəlxalq məsələləri həll etməkdə əməkdaşlıq edirlər. Nizamnamənin 10-cu və 11-ci maddələrində göstərilir ki, Baş Məclisin istənilən işləri müzakirə

26 Sahar, *a.g.e.*, s. 32.
27 BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, *a.g.e.,* s. 20.
28 BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, *a.g.e.,* s. 29.

etmək, BMT üzvlərinə və ya Təhlükəsizlik Şurasına, yaxud da onların hər ikisinə tövsiyələr vermək hüququ, var.[29] Bununla belə, Nizamnamədə beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsində başlıca məsuliyyətin Təhlükəsizlik Şurasının üzərinə düşdüyü qeyd olunur. Nizamnamənin 12-ci maddəsində qeyd edildiyi kimi, öz funksiyalarını yerinə yetirən zaman əgər Təhlükəsizlik Şurası xahiş etmirsə, Baş Məclis həmin mübahisə, yaxud şərait ilə əlaqədar heç bir tövsiyə verə bilməz.[30] Nizamnaməyə uyğun olaraq Baş Məclis və Təhlükəsizlik Şurasının birgə fəaliyyəti beynəlxalq sülh və təhlükəsizliyi müdafiədə səmərəli nəticə verə bilər. Təhlükəsizlik Şurası çevik və səmərəli fəaliyyət göstərməlidir. Mübahisələri sülh yolu ilə həll edərkən, təşkilatın üzvlərinin hüquqlarını müəyyənləşdirərkən, hər hansı üzvün BMT-dən çıxarılması zamanı Təhlükəsizlik Şurasının tövsiyəsi tələb olunur. Rusiya tədqiqatçısı T.N.Neşatayeva Baş Məclisin qəbul etdiyi qətnamələrin müqavilə mənşəli olduğunu, müraciət edilən subyektlər üçün hüquqi öhdəlik olduğunu bildirir.[31] Təhlükəsizlik Şurası ancaq gündəlikdə olan məsələlərə baxdıqdan sonra Baş Məclis BMT üzvlərinə məlumat verir. Təhlükəsizlik Şurası illik hesabatı Baş Məclisə verir, lakin Baş Məclisin hər hansı qətnaməni bəyənməmək hüququ yoxdur. Təhlükəsizlik Şurası özü öz qərarını dəyişdirə bilər. Əgər birinci dəfə qərar qəbul edəndə ona məlum olmayan hallar ortaya çıxarsa, Təhlükəsizlik Şurası həmin məsələyə yenidən baxar və öz ilkin qətnaməsini dəyişdirə bilər. Nizamnaməyə əsasən Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr hüquqi xarakterli qərarlardır və beynəlxalq hüquq normalarına uyğun olaraq hər bir üzv dövlət bu qətnamələrə riayət etməlidir. Beynəlxalq hüquqi nizamlama vasitəsi kimi sanksiyaların, qətnamələrin təhlükəsizliyin təmin edilməsində rolu böyükdür. Baş Məclisin və Təhlükəsizlik Şurasının Nizamnaməyə müvafiq qəbul etdiyi qətnamələr hüquq pozuntularına qarşı ciddi tədbirlərdir. Hərbi sanksiyaları isə yalnız BMT qəbul edə bilər.[32] Baş Məclis Təhlükəsizlik Şurasının

29 BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, *a.g.e.*, s. 11-12.
30 BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, *a.g.e.*, s. 13.
31 Нешатаева Т.Н., Международные организации и право. Новые тенденции в международно-правовом регулировании, М.: Дело, 1999, s. 95.
32 Шибаева Е.А., Право международных организаций. Вопросы теории. М.: Международные отношения, 1986, s. 119.

qəbul etdiyi qətnamələri yerinə yetirməlidir. Baş Məclisin qərarlarının ancaq tövsiyə xarakteri daşıması, hər hansı bir üzv dövlətin bütün rəhbər orqanlarda iştirakı dövlətlərin suverenliyini məhdudlaşdırır.[33] Nizamnamənin 25-ci maddəsinə uyğun olaraq BMT üzvləri Təhlükəsizlik Şurasının qətnamələrinə, qərarlarına tabe olmalı, yerinə yetirməlidirlər.[34] Bununla da BMT beş daimi üzvün əlində onların iddialı maraqlarını həyata keçirən və digər dövlətlərin maraqlarına zərər vuran bir quruma çevrilir. Belə ki, Təhlükəsizlik Şurasında qərarların qəbul edilməsi veto hüquqlu beş dövlətin əlindədir və nəinki Təhlükəsizlik Şurasında, həmçinin Baş Məclisdə "səsin çəkisi" fərqlənir. Böyük dövlətlər böyük, kiçik dövlətlər kiçik səsə malik olurlar. Əgər 14 üzv Təhlükəsizlik Şurasının qərarlarını dəstəkləyirsə, daimi üzvlərdən biri onun əleyhinə çıxırsa, qərar qəbul edilmir. Əgər 5 daimi üzv daxil olmaqla, 9 üzv qərarı dəstəkləyirsə, qalan 6 müvəqqəti üzv dəstəkləmirsə, qərar qəbul edilir. Türkiyə Cümhuriyyəti Prezidenti Rəcəp Tayyib Ərdoğanın 2016-cı il 25-26 noyabr tarixlərində keçirilən və mənim də məruzəçi kimi iştirak etdiyim İkinci Beynəlxalq Qadın və Ədalət Sammitində dediyi kimi, "196 dövlətin BMT Təhlükəsizlik Şurasında təmsil olunmadığı BMT ədalətli qərar çıxara bilməz."[35]

Rusiya tədqiqatçısı A.V.Torkunov Təhlükəsizlik Şurasında islahatların BMT-də islahatlara stimul verdiyini qeyd edərək Soyuq müharibə dövrü başa çatdıqdan sonra BMT-nin qarşısında duran vəzifələrin artdığını və bu məqsədlə təşkilatda islahatların zəruriliyini vurğulayır.[36] Müəllif Baş Məclisin qəti qərar qəbul etməsi, Baş katibin statusunun daha aydın müəyyənləşdirilməsi, Katibliyin işində yenidənqurmanın, ixtisaslaşmış qurumların funksiyalarının dəqiqləşdirilməsi, fəaliyyətinin əlaqələndirilməsi, Beynəlxalq Məhkəmənin səlahiyyətlərinin genişlənməsi zəruriliyini göstərməklə yanaşı, Təhlükəsizlik Şurasında islahatları

33 С.А.Ланцова, В.А.Ачкасова, Мировая политика и международные отнощения: Учебное пособие / под редакцией М.: Питер Пресс, 2008, s. 248.

34 BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, *a.g.e.*, s. 19.

35 "Yaratılışta Eşitlik Var", *KADEM*, http://kadem.org.tr/recep-tayyip-erdogan-ii-kadin-ve-adalet-zirvesinin-acilisinda-konustu-yenigun/, (Giriş Tarixi: 25.11.2016).

36 Современные международные отношения: Учебник / Под ред. А.В.Торкунова, М.: Российская политическая энциклопедия, 2000 (A.V. Torkunova, *Sovremenniye Mejdunarodniye Otnosheniya*, Rossiyskayapoliticheskayaentsiklopediya, Moskova 2000), s. 228-229.

ön plana çəkir, veto hüquqlu daimi üzvlərin sayının çoxalmasının Təhlükəsizlik Şurasının fəaliyyətini iflic edəcəyi, beynəlxalq münaqişələri nizamasalmaya mənfi təsir edə biləcəyi ehtimalını bildirir. ABŞ hüquqşünaslarının irəli sürdükləri "kompensasiya doktrinası"na görə, BMT-nin əsas orqanlarından birinin zəifləməsi digər orqanların zəifləməsinə səbəb ola bilər.[37]

Baş Məclis və Təhlükəsizlik Şurası üzvlərinin sayı arasında qeyri-bərabərlik Təhlükəsizlik Şurasının digər əsas problemlərindən biridir. Bu, Nizamnamənin 2-ci maddəsinin məzmununa ziddir, yəni "bütün üzvlərin suveren bərabərliyi prinsipi"ni pozur. Bu səbəbdən bir çox ölkənin BMT-də üzvlüyü "reklam" xarakteri daşıyır.

Beləliklə, aparılan tədqiqatlar göstərir ki, Təhlükəsizlik Şurasının əsas nöqsanları aşağıdakılardır: Birincisi, daimi üzvlərin veto hüququ və bu veto gücü qurumu qeyri-demokratik etmişdir. Daimi üzvlər veto gücündən bir-birinə qarşı siyasi silah kimi istifadə edirlər. İkincisi, regional qruplarına görə Təhlükəsizlik Şurasının daimi və müvəqqəti üzvləri Soyuq müharibə dövrünə uyğun regionlar üzrə seçilirlər. Üçüncüsü, silahlanmanın artması, münaqişə yaşayan dövlətlərə silah satmaları marağı münaqişələrin nizama salınmasında Təhlükəsizlik Şurasının öz məsuliyyətini yerinə yetirməsinə imkan vermir. Dördüncüsü, Baş Məclis və Təhlükəsizlik Şurası üzvlərinin sayı arasında qeyri-bərabərlik mövcuddur.

Hazırda daimi üzvlər vetodan istifadə etmələrinin önə çıxmaması üçün və beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün maneə kimi görünməmələri üçün Təhlükəsizlik Şurasına gələn mübahisəli bir məsələnin qarşısını almaq üçün lobbiçilik edirlər. Bəzən isə "cib vetosuna" əsaslanırlar, yəni istəmədikləri layihənin gündəliyə gətirilməsinin qarşısını alırlar. Təhlükəsizlik Şurasında 1963-cü ildə islahatlar zamanı daimi üzvlər saxlanılmaqla, müvəqqəti üzvlərin sayının artırılması regional münaqişələrin

37 Федоров В.Н. Совет Безопасности ООН. М.: Международные отнощения, 1965 (V.N. Fedorov, *Sovet Bezopasnosti OON*, Mejdunarodniye Otnosheniya, Moskova 1965), s. 46.

nizama salınmasında BMT-nin səmərəliliyini artırmadı. BMT-nin tarixi təcrübəsi göstərir ki, yeni islahatlarda demokratik cəmiyyətə uyğun olmayan veto hüququnun saxlanıb-saxlanılmaması məsələsi, Təhlükəsizlik Şurasının Nizamnamənin sülhə məcburetmə bölmələrindən istifadə etməsi imkanları nəzərdən keçirilməlidir. Həm də islahatlar yalnız Təhlükəsizlik Şurasında deyil, həmçinin Baş Məclisdə, İqtisadi və Sosial Şurada, Katiblikdə, Beynəlxalq Məhkəmədə, Hərbi Qərargah Komitəsində, BMT-nin ixtisasiaşmış qurumlarında aparılmalıdır. Bu islahatların həyata keçirilməsi üçün isə ilk növbədə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri arasında yekdillik olmalıdır. Belə bir yekdilliyin əldə edilməsi isə hələ ki, real görünmür.

## Təhlükəsizlik Şurasının daimi üzvləri arasında geosiyasi ziddiyyətlər

Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çinin veto qoymaq hüququ olduğu üçün beynəlxalq təhlükəsizliyi müdafiə etməkdə onların hüquqları daha çoxdur. Lakin bu beşlik veto hüququndan öz geosiyasi maraqları üçün bəhrələnir və ona görə də daimi üzvlər ilə müvəqqəti üzvlər arasında bir növ həmrəylik azalır, ənənəvi olaraq diplomatiya həmin beş ölkənin xeyrinə işləyir.[38] Rusiya tədqiqatçısı V.L.Oleandrov BMT-də iki prinsipin - demokratiya və realizm prinsiplərinin aydın göründüyünü qeyd edir. Demokratiya prinsipi ondan ibarətdir ki, hər bir dövlət Baş Məclisdə müzakirə edilən problemə dair öz rəyini bildirir, təkliflərini, başlıcası isə tövsiyələrini verir. Realizm prinsipi isə ondan ibarətdir ki, beynəlxalq münasibətlər faktiki olaraq iri dövlətlərdən asılıdır.[39]

2003-cü ildə İraq məsələsi ilə əlaqədar Baş Məclisin 58-ci sessiyasında 50 dövlətin baş nazirləri və xarici işlər nazirləri BMT-nin mərkəzi rolunu möhkəmləndirmək məsələsini irəli sürdülər. Bu zamana qədər keçmiş Baş katib B.B.Qali, Baş katib Kofi Annanın uzun müddət məsləhətçisi olmuş, Əlcəzairin xarici işlər

38 Charles Zorgbibe, *La France, L'ONU et le maintien de la paix*, Press Universitaires de France, Paris 1996, s. 149.

39 Мировая политика в условиях кризиса: Учебное пособие / под редакцией С.В.Кортунова. М.: Аспект Пресс, s. 191-193.

naziri Laxdar Braximinin rəhbərliyi altında beynəlxalq ekspertlər qrupu, Baş katibin müavini olan M.Quldinq, BMT-də ali vəzifədə olan Brayan Urkxart, Venesuelanın BMT yanındakı nümayəndəsi Dieqo Arria BMT-də islahatlar barədə bəzi təkliflər vermişdilər. Lakin bu təkliflər müsbət nəticə verməmişdi. Baş katib Kofi Annan BMT-də islahatlar aparmaq, kollektiv tədbirlər keçirmək, BMT-nin əsas orqanlarının funksiyası barədə tövsiyələr vermək üçün 2005-ci il Sammitində 15 tanınmış siyasi xadimdən ibarət Təhlükələr və dəyişikliklər üzrə yüksək səviyyəli qrup yaratdı.[40] Baş katib Kofi Annanın islahatlarla bağlı məlum təkliflərini, Təhlükəsizlik Şurasında islahatlar aparılmasını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də dəstəklədi.

Müasir beynəlxalq münasibətlər sisteminin təhlili göstərir ki, Təhlükəsizlik Şurası daimi üzvləri arasında əməkdaşlıqdan daha çox ziddiyyətlər mövcuddur. İstər etnik, istər regional münaqişələrə, istərsə də beynəlxalq terrorizmə qarşı mübarizədə bu dövlətlər arasında fikir ayrılığı özünü göstərir. Məsələn, son zamanlarda İraq, Liviya və Krım ilə bağlı qətnamələr qəbul edilərkən belə hallar olmuşdu. ABŞ-ın İraqa hücumu barədə qətnaməni Böyük Britaniya dəstəklədi, Rusiya və Fransa ABŞ-ın İraqa qarşı hücumu əleyhinə çıxdı, Çin İraq probleminin BMT səviyyəsində diplomatik-siyasi yolla həll edilməsinə üstünlük verdiyini bildirdi.[41] Təhlükəsizlik Şurasının İraq barədə 1441 saylı qətnaməsi müharibəyə icazə vermədi. İraqa qarşı müharibəyə icazə verən hər hansı qətnamələrə veto qoymaqla hədələyən Fransa İraqa hücum barədə qətnamənin qəbul edilməsinin qarşısını aldı.[42] ABŞ və Böyük Britaniya İraqa hərbi hücum barədə icazə almaq üçün Təhlükəsizlik Şurasına başqa bir qətnamə təqdim etməsi təklifini irəli sürdülər. Lakin ABŞ, Böyük Britaniya və Avstraliya Təhlükəsizlik Şurasının və beynəlxalq ictimaiyyətin əksəriyyətinin razılığı olmadan İraqa qarşı müharibə apardılar. Müharibənin başlanmasından bir il sonra Kofi Annan İraqın qanunsuz istilasına çağırış etdi və İraqın öhdəliklərini yerinə yetirməməsinin

40 Накашидзе Б. ООН: некоторые аспекты реформирования // Власть, 2005, № 6, s. 59-62.

41 R.B. Dadaşova, *Beynəlxalq münasibətlərin müasir problemləri və BMT*, Təknur, Bakı 2011, s. 108.

42 Sahar. *a.g.e.*, s. 23.

nəticələrini Təhlükəsizlik Şurasının müəyyən edəcəyini iddia etdi.[43] Kofi Annan müharibənin başlanğıcından bəri bir neçə dəfə işğalın "BMT Nizamnaməsinə uyğun gəlmədiyini" söyləmişdi. Daha sonra aydın oldu ki, İraqın kütləvi qırğın silahlarına malik olması müharibənin başlanması üçün əsas bəhanədir. Müharibə əsasən ABŞ rəhbərliyinin işğalına beynəlxalq dəstək almaq üçün Amerika dövlət orqanları tərəfindən hazırlanmışdı. Lakin Təhlükəsizlik Şurası ABŞ və Böyük Britaniyanın hərəkətlərini qınayan bir qətnamə qəbul etmədi. Çünki Təhlükəsizlik Şurasının daimi üzvləri belə bir qərara veto qoyacaqdılar. Daha sonra Təhlükəsizlik Şurası 1483 saylı qətnamə qəbul etdi. Lakin Təhlükəsizlik Şurası qətnamədə ABŞ və Böyük Britaniyanın hərəkətlərini qınamadı, əksinə legitimləşdirdi.[44]

İraq müharibəsi ilə bağlı müzakirələr zamanı Təhlükəsizlik Şurasında iştirak edən Meksika nümayəndəsinin və bəzi nümayəndələrin şərhləri göstərir ki, ABŞ bəzi ölkələri İraqdakı hücumu dəstəkləməyə məcbur etmişdir.[45]

Təhlükəsizlik Şurasının daimi üzvlərindən BMT-ni daha çox maliyyələşdirən ABŞ-ın statusu fərqlidir. ABŞ gücünü, xüsusilə iqtisadi üstünlüyünü itirmiş ola bilər, lakin hələ də bir fövqəl güc hesab olunur.

Təhlükəsizlik Şurası Liviya, Suriya və Yəmənə dair qətnamə qəbul edərkən də daimi üzvlər arasında ixtilaf yarandı. Liviya barədə qətnamə layihəsini Livan, Böyük Britaniya, Fransa və ABŞ irəli sürmüşdü. Rusiya və Çin qətnaməni dəstəkləmədi.[46]

Krım məsələsi Təhlükəsizlik Şurasında yeddi dəfə müzakirə edilsə də, daimi üzvlər arasında yekdil fikir olmadığı üçün yekun qətnamə qəbul edilmədi. 2014-cü il martın 15-də keçirilən iclasda 13 dövlət səs versə də, Rusiya veto qoyduğu üçün qətnamə

43 *Aynı yer.*
44 "Resolution 1483 (2003) Adopted by the Security Council at its 4761st Meeting on 22 May 2003", *UN Documents*, https://documents-dds-ny.un.org/doc, (Giriş Tarixi: 17.10.2014); Sahar. *a.g.e.*, s. 23.
45 Sahar, *a.g.e.*, s. 25.
46 Dadaşova, *a.g.e.,* s. 110.

qəbul edilmədi. ABŞ-ın BMT yanındakı nümayəndəsi Samanta Pauer Rusiyanın veto hüququndan sui-istifadə etdiyini aşağıdakı kimi ifadə etdi: “BMT-də Rusiyanın Təhlükəsizlik Şurasının qətnamələrinə veto qoymaq hüququ var. Lakin onun həqiqətə veto qoymaq hüququ yoxdur.”[47] Fransanın BMT yanındakı nümayəndəsi Jerar Aro da bildirdi ki, Fransa Krımla bağlı Rusiyanın mövqeyini dəstəkləmir.[48] Martın 27-də Baş Məclis Ukraynanın ərazi bütövlüyü barədə qətnamə qəbul etdi.[49] Həmin qətnamədə Ukraynanın ərazi bütövlüyünün pozulmasına yönəlmiş hərəkətə etiraz əksini tapmışdı. Baş Məclisdə iştirak edən 100 dövlətdən 58-i Rusiyanın mövqeyini dəstəkləmədi. Rusiyanın mövqeyini Ermənistan da daxil olmaqla 10 dövlət müdafiə etdi. Təhlükəsizlik Şurasında qəbul edilən qətnamələrdən fərqli olaraq Baş Məclisdə qəbul edilən qətnamələrə veto qoymaq imkanı olmadığı üçün Rusiya adı çəkilən qətnaməyə veto qoya bilmədi. Beləliklə, BMT Krımın Rusiyaya birləşdirilməsini tanımadı. Baş Məclisin qətnaməsi tövsiyə xarakteri daşısa da, Rusiyanı beynəlxalq hüquq prinsiplərini pozması barədə xəbərdar etdi.

BMT yaradılarkən Təhlükəsizlik Şurasının daimi üzvlərinə veto hüququnun verilməsində məqsəd hegemon dövlətlər arasında vahidlik prinsipinin yaradılması idi. Təşkilatın təsis edilməsi zamanı ABŞ Prezidenti F.Ruzvelt veto hüququnu dəstəkləsə də, böyük dövlətlərin veto hüququ kiçik dövlətlərin təhlükəsizliyini pozduğu üçün Amerika xalqı və senatının bu təklifi dəstəkləməyəcəyini bildirdi.[50] Stalin Ruzveltə yazdığı məktubunda dörd dövlətin vahidlik prinsipini müdafiə etdiyini aşağıdakı kimi ifadə edirdi: “Bu ölkələr arasında qarşılıqlı şübhə yeri olmamalıdır.”[51] Böyük Britaniyanın baş naziri U.Çerçil də böyük dövlətlərin yekdil fəaliyyətinin BMT-də böyük məna kəsb etdiyini bildirmişdi. O, bu barədə Stalinə məxfi məktubunda da

47 “Споры по Крыму в Совбезе ООН:США говорили о санкциях, а Россия – о правах”, *Glavred*, http://glavred.info/politika/spory-po-krymu-vsovbeze-oon-ssha-govorili-o-sankciyah-a-rossiya-o-pravah-274140.html, (Giriş Tarixi: 17.10.2014).

48 *Aynı yer.*

49 “UN General Assembly Adopts Resolution Affirming Ukraine’s Territorial Integrity”, *Xinhua.net*, 28 Mart 2014, http://web.archive.org/web/20160304092536/http://news.xinhuanet.com/english/world/2014-03/28/c_126325576.htm, (Giriş Tarixi: 17.10.2014).

50 Уткин А.И. Дипломатия Франклина Рузвельта. Издательство Урал. Университета, Свердловск 1990, s. 433-434.

51 Utkin, *a.g.e.*, s. 434.

yazmışdı.[52] Lakin bu gün fövqəldövlət olan ABŞ veto hüququndan NATO mərkəzçiliyi siyasətini reallaşdırmaq, Rusiya isə keçmiş sovet məkanında öz niyyətlərini həyata keçirmək məqsədi ilə istifadə edir. Belə ki, beynəlxalq münasibətlərin yeni sisteminin formalaşmasında ABŞ yalnız iqtisadi hegemonluğa meyil etmir, o həm də dünyanın iqtisadi baxımdan zəngin və strateji əhəmiyyətli regionlarında mövqeyini möhkəmləndirməyə cəhd edir. İki qütblü dünya sisteminin süqutundan sonra fövqəldövlət mövqeyini əldən verən Rusiya yenidən keçmiş SSRİ məkanında möhkəmlənməyə cəhd edir. SSRİ-nin süqutundan sonra Rusiyanın ABŞ-la beynəlxalq əlaqələrində ideoloji ziddiyyətlər aradan qalxdı, geosiyasi ixtilaflar gücləndi, beynəlxalq problemlərin həllində, ticarət, hərbi-siyasi sahələrdə, tərksilah, regonal təhlükəsizlik, strateji sabitlik, BMT-də münasibətlər və digər məsələlərdə fikir ayrılığı yarandı. Hazırda Asiyada ABŞ-ın milli maraqları regionda üstünlük əldə etməyə cəhd edən istənilən ölkənin, ilk növbədə Rusiyanın maraqları ilə toqquşur. Bu baxımdan H.Kissincer yazır ki, ABŞ-ın Asiya siyasətinin əsas prinsipləri aşağıdakılardan ibarətdir: Birincisi, Asiyada Amerika milli maraqları regionda dominantlıq etməyə cəhd edən istənilən ölkənin maraqları ilə toqquşur. İkincisi, ABŞ üçün Asiyanı istənilən təhlükədən qorumağın ən yaxşı üsulu hərbi üstünlüyü olan iri Asiya dövlətlərinin ABŞ-ın məqsədləri ilə bir araya sığan xarici siyasət həyata keçirməsidir. Üçüncüsü, Yaponiya ilə ittifaq ABŞ-ın Asiyada başlıca siyasəti olaraq qalır. Yaponiya başa düşməlidir ki, Asiyada onun ABŞ-dan vacib həmkarı yoxdur. Dördüncüsü, İslam dünyasında olan hadisələrə təsir edə bilən Hindistanla sıx dialoq aparmaq lazımdır. Hindistanın iddiaları hazırkı mərhələdə ABŞ-ın Avrasiya maraqları ilə toqquşur. Beşincisi, Çin-ABŞ münasibətləri ABŞ tərəfindən müəyyən edilə bilər. Bu münasibətlər ümumi maraqlara xidmət etməlidir. Altıncısı, Koreya ilə münasibətləri tənzimləmək lazımdır. Yeddincisi, ABŞ-ın milli maraqlarında nüvə silahını məhdudlaşdırmaq və Asiya ölkələrini də bu prosesə cəlb etmək lazımdır. Səkkizincisi, dünyanın nizamlanmasında fəal iştirak etmək üçün ABŞ-ın Asiyada aydın siyasəti olmalıdır. ABŞ bu regionda iştirak etməlidir, lakin dominant təsir bağışlamamalıdır.



52 Переписка председателя Совета Министров СССР с президентами США и премьер министрами Великобритании во время Великой Отечественной войны 1941-1945гг.: в 2 томах, Переписка с У. Черчиллем И.К. Эттли, Т 1 (июль 1941 г.- ноябрь 1945 г.), М.: Политической литературы, 1986, s. 227.

O, heç bir münaqişənin mərkəzində olmadan müxtəlif təhlükələrin qarşısını almaqda həlledici rol oynamalıdır.[53]

ABŞ-ın Avrasiya siyasətinin prioritetlərindən biri NATO-nun tərkibinin Şərqə doğru genişləndirilməsidir. NATO-nun sərhədləri genişləndikcə ABŞ-ın Avropada nüfuzu artır. Avropa İttifaqında olduğu kimi NATO-ya Mərkəzi Avropa dövlətlərinin, Baltik dövlətlərinin, Ukraynanın qoşulması ABŞ-ın maraqları dairəsindədir. Eyni zamanda Avropa dövlətləri özləri öz təhlükəsizliklərini təmin etməkdə ABŞ-dan hiss olunacaq dərəcədə asılıdırlar. H.Kissincer hesab edir ki, dünyada ABŞ, Avropa, Çin, Yaponiya, Rusiya, Hindistan kimi altı əsas güc mərkəzi olsa da, XXI əsrin beynəlxalq sistemində ABŞ inteqrasiya rolu oynayacaqdır.[54] Rusiya tədqiqatçısı A.D.Boqaturov ABŞ-ın Avropa siyasətində məqsədinin təhlükəsizlik, Yaxın və Orta Şərqdə, Xəzər dənizi, Mərkəzi Asiya ətrafı siyasətində məqsədinin isə ekoloji təhlükəsizlik olduğunu, Rusiya, Yaponiya, Koreya, Çin və Hindistanda siyasətində məqsədinin köhnə və yeni strateji maraqlarından irəli gəldiyini yazır.[55]

ABŞ-ın Avrasiyada strateji məqsədlərindən biri Atlantik okeanını Sakit okean ilə birləşdirən keçmiş Böyük İpək yolu məkanında möhkəmlənmək və Avrasiya Mərkəzi Kommunikasiya sistemi üzərində nəzarət etməkdir. Rusiya tədqiqatçısı A.F Panarin yazır ki,  Çin və Hindistan bitərəfləşdirilmədən  ABŞ uzunmüddətli hegemon ola bilməz.[56] Çin gücləndikcə Yaponiya ABŞ üçün daha böyük əhəmiyyət kəsb edir. ABŞ-ın yeni dünya nizamının yaradılmasında güclü müttəfiqə ehtiyacı vardır və buna görə də o, Şərqi Asiyada Yaponiya ilə təhlükəsizlik sahəsində əməkdaşlığı möhkəmləndirir, Yaponiya ilə ittifaq Birləşmiş Ştatların Asiyada başlıca siyasəti olaraq qalır. ABŞ-dan sonra BMT-ni daha çox maliyyələşdirən dövlətlər Yaponiya və Almaniyadır.

53 Киссинджер Генри. Нужна ли Америке внешняя политика? / Пер. с англ. под ред. В.Л. Иноземцева. М.: Ладомир, 2002, s. 172-173.

54 Геополитика: Антология. М.: Академический Проект Культура, 2006, s. 14.

55 Современная мировая политика: Прикладной анализ/Отв. Ред. А.Д.Богатуров. М.: Аспект Пресс, 2010, s. 362.

56 Панарин А.Ф. Стратегическая нестабилность в XXI веке. М.: Алгоритм, 2003, s. 42.

ABŞ-ın bu dövlətlərin Təhlükəsizlik Şurasına daimi üzv kimi qəbul edilməsinin tərəfdarı olması da bir tərəfdən bununla bağlıdır. Z.Bzejinski yazır: "İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdən biri olan Yaponiya liderlik iqtidarında olan bir dövlət olsa da, bu vəziyyətdən istifadə etmir, regional dominant dövlət olmağa cəhd etmir, Amerikanın tabeliyi altında siyasət yeritməyə üstünlük verir. Uzaq Şərqdə təhlükəsizliyin təmin edilməsində Amerikanın rolu Yaponiya ilə əməkdaşlıqdan asılıdır. Yeni dünya nizamının yaradılmasında güclü müttəfiqə ehtiyacı olan ABŞ Şərqi Asiyada Yaponiya ilə təhlükəsizlik sahəsində əməkdaşlığı möhkəmləndirir, güclü tərəfdarlar toplamaq üçün fəal çıxış edir."[57] Qeyd etmək lazımdır ki, ABŞ hələ 70-ci illərdə Almaniya və Yaponiyanın Təhlükəsizlik Şurasının daimi üzvləri sırasına daxil olması barədə ideya irəli sürmüşdü. Bu, Təhlükəsizlik Şurasında həm həmkarlarının sayının artması, həm də BMT-yə qoyduğu xərcin azalması baxımından ABŞ üçün əhəmiyyət kəsb edirdi. Bununla belə, inkişaf etməkdə olan ölkələrin təzyiqi altında ABŞ Yaponiya və Almaniya ilə yanaşı inkişaf etməkdə olan hər bir regiondan bir ölkənin Təhlükəsizlik Şurasına daxil edilməsi barədə razılaşdı. Z.Bjezinski yazır: "Yaponiya ABŞ ilə müasir dünya problemlərinin həll edilməsində sıx əməkdalıq etməklə, dünya səviyyəsində təsir edə bilən bir dövlət ola bilər. Amerika rəhbərliyi bu istiqamətdə Yaponiyaya kömək etməlidir. Ümumi iqtisadi məkan yaratmaqdan bəhs edən azad ticarət barədə Amerika-Yaponiya sazişi iki ölkə arasında münasibətləri möhkəmlədə bilər. Məhz Yaponiya ilə sıx əlaqələr yaratmaqla ABŞ regionda Çinin cəhdlərinin qarşısını ala bilər."[58]

Avropa İttifaqının liderlərindən olan Almaniya bu İttifaq vasitəsi ilə müəyyən qlobal təsirini davam etdirir, ABŞ-ın əsas tərəf müqabilidir, loyal həmkarıdır, vacib hərbi bazasıdır, kəşfiyyat fəaliyyətində sıx əməkdaşıdır. ABŞ Almaniyanın Təhlükəsizlik Şurasının daimi üzvü olması iddiasını dəstəkləyir. Bununla əlaqədar olaraq Z.Bjezinski yazır: "ABŞ-ın Avropada rəhbərliyinə

57 Збигнев Бжезинский. Великая шахматная доска (Господство Америки и его геостратегические императивы) Перевод О. Ю. Уральской М.: Междунар. отношения, 1998, s. 61.
58 Bjezinskiy, *a.g.e.*, s. 247.

nail olmaq üçün Avropada Almaniyanın liderliyini dəstəkləmək lazımdır. Almaniya "bağışlanma+təhlükəsizlik = Avropa+Amerika" formulunu dəstəkləyir. Bu formula görə Almaniya Avropada Amerikanın əsas tərəfdarıdır."[59]

ABŞ-ın xarici siyasətinin əsasını hərbi qüvvələrin gücləndirilməsi, onun xarici siyasətini müdafiə edən dövlətlərlə müttəfiqliyi möhkəmlətmək, təhlükəli hesab etdiyi dövlətlərə qarşı daha kəskin siyasət yeritmək, digər ölkələrlə bağlı məsələlərdə müttəfiqlərlə, dünənki rəqiblərlə, keçid tipli bütün dövlət qurumları ilə münasibətlərdə öz maraqlarını müəyyən etmək, möhkəm hakimiyyət sistemi olmayan, müxtəlif tipli diktatorun hegemonluq etdiyi müflisləşmiş ölkələrlə münasibətlərdə qlobal mövqeyini möhkəmlətmək, sözdə nüvə silahının yaradılması əleyhinə çıxsa da, nüvə silahı istehsalını və bu silahın modernləşdirilməsini davam etdirməkdir. Aparılan təhlil göstərir ki, ABŞ-ın dünyanı təkbaşına idarə etməyə cəhd etməsi BMT-nin süqutu ilə nəticələnə bilər. Belə ki, Rusiya tədqiqatçısı T.Neşatayeva Millətlər Cəmiyyətinin məğlub olmasının iki başlıca səbəbini göstərir: 1)1919-1939-cu illərdə ictimai-siyasi şərait yeni beynəlxalq siyasi strukturun olmasını tələb edirdi. Bu təşkilat inteqrasiya xarakterli deyildi, mərkəzdənqaçan meyilli idi. Dünyada hegemonluq etməyə çalışan üzv dövlətlərin milli statusunun güclənməsi prosesi gedirdi. 2) Millətlər Cəmiyyətinin hüquqi mexanizmi tam deyildi və dövlətlərarası münasibətləri inkişaf etdirmək üçün üzv dövlətlər arasında mübahisələri həll etmək imkanına malik deyildi.[60] Rusiya tədqiqatçısı V.Oleandrov Millətlər Cəmiyyətinin kollektiv güc bazisinin olmamasının, Avropa ölkələrinin məğlub və qalib dövlətlərə bölünməsinin, ABŞ-ın bu qurumda iştirak etməməsinin və SSRİ-nin uzun müddət bu təşkilata buraxılmamasının nəticəsində təşkilatın iş qabiliyyətinin itdiyini yazır.[61] Millətlər Cəmiyyəti ilə müqayisə edildikdə, belə nəticəyə gəlmək olar ki, hazırda BMT-də qəbul edilən qərarlara ABŞ-ın, yaxud Rusiyanın öz geosiyasi maraqlarına müvafiq veto qoymaları, digər dövlətin daxili

59 Bjezinskiy, *a.g.e.*, s. 80.
60 Нешатаева Т.Н. Международные организации и право. Новые тенденции в международно-правовом регулировании. М.: Дело, 1999, s. 14.
61 Neshatayeva, *a.g.e.*, s. 190-191.

yurisdiksiyasında olan məsələlərə müdaxilə etmələri, beynəlxalq hüquq normalarına əməl edilməməsi, BMT-nin üzv dövlətlər arasında mübahisələri həll etmək gücünə malik olmaması bu təşkilatın da süqutuna aparıb çıxara bilər. Bunun qarşısını almaq üçün BMT-də islahatların aparılması aktual məsələlərdən biridir.

Rusiya BMT-nin təhlükəsizliyin təmin olunmasında aparıcı rolunu və Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququnun saxlanılmasını dəstəkləyir. 2003-cü ildə Rusiya Federasiyasının Prezidenti V.Putin Baş Məclisin 58-ci sessiyasında etdiyi çıxışında bildirdi: "BMT məktəbinin başlıca dəyəri odur ki, bəşəriyyətin təhlükəsizliyi, ədalətlilik, firavan dünya yaratmaqda onun alternativi yoxdur."[62] BMT-nin qlobal təhlükəsizlik barədə qətnamələri göstərir ki, o, müasir beynəlxalq təhlükəsizliyi təmin edən çoxtərəfli sistemdir. NATO mərkəzçiliyi siyasətini qəbul etməyən Rusiya qitədə təhlükəsizlikdə ATƏT-in fəaliyyətinə, postsovet məkanında münaqişələrin "nizama salınmasında" MDB-nin fəaliyyətinə, yaxud "nizama salmanı" tək həyata keçirməyə üstünlük verir. Cənubi Qafqaz Rusiyanın milli təhlükəsizliyini təmin etmək baxımından Moskvanın diqqət mərkəzində qalmaqdadır. Bu regionda münaqişələrin nizama salınmasına vasitəçilik etməsi, ATƏT-in Minsk qrupunda həmsədrlik etməsi, yaxud MDB sülhməramlılarını münaqişə regionuna göndərmək canfəşanlığı da bununla izah edilir. SSRİ süqut etdikdən sonra Rusiya ilə yanaşı ABŞ Cənubi Qafqaz regionunda böyük təsirə malik oldu. Cənubi Qafqaz dövlətləri içərisində Rusiya Ermənistana xüsusi əhəmiyyət verir və onunla hərbi sahədə sazişlər bağlayır. Rusiya tədqiqatçısı N.Nartov yazır: "ABŞ-ın Ukrayna, Azərbaycan, Gürcüstan respublikalarının inkişafına köməyi Rusiyanın mərkəzləşdirmə siyasətini zəiflətməyə yönəldilmişdir."[63] Rusiya tədqiqatçıları S.Jilçov və İ.Zonn isə yazırlar: "ABŞ-ın xarici siyasətinin əsas alətlərindən biri insan hüquqları və demokratiyanın inkişaf etdirilməsi bəhanəsi ilə regionlara təzyiq etməkdir."[64]



62 Федотов Ю.В. Современные вызовы многосторонности и ООН // Международная жизнь, 2004, № 3, s. 9-20.
63 Нартов Н.А. Геополитика: Учебник для вузов / Под ред. проф. В.И.Староверова. М.: Единство 2003, s. 268.
64 Жильцов С.С., Зонн И.С., США в погоне за Каспием. М.: Международные отнощения, 2009, s. 56.

ABŞ-ın yeni müstəqillik əldə etmiş dövlətlərə köməyinin səbəbinin izahı ilə bağlı ABŞ tədqiqatçıları arasında fikir ayrılığı vardır. Amerika tədqiqatçılarının əksəriyyəti ABŞ-ın enerji ehtiyatları o qədər də çox olmayan Mərkəzi Asiya və Qafqazda strateji maraqlarının olmadığını, onun siyasətinin demokratik institutların möhkəmləndirilməsinə, enerji ehtiyatlarının tədqiqinə, regionlarda münaqişələri nizamasalmaya yönəldildiyini bildirirlər.[65] Z.Bjezinski isə yazır: "Rusiyanın yenidən güclü dövlət olmasının qarşısını almaq üçün ABŞ yeni müstəqillik əldə etmiş dövlətlərin inkişafına kömək edir."[66]

İqtisadi strategiya ABŞ-ın müasir xarici siyasətinin əsas prioritetlərindən biridir və Xəzər dənizinin karbohidrogen ehtiyatlarının mənimsənilməsi Cənubi Qafqazı ABŞ-ın Xəzər regionu geosiyasətinin tərkib hissəsinə çevirir. Eyni zamanda ABŞ-ın Cənubi Qafqaz siyasətində məqsədlərindən biri geosiyasi rəqib kimi Rusiyanı regiondan sıxışdırmaqdır.

Öz iqtisadi potensialına görə ABŞ və Rusiyadan sonra üçüncü yerdə olan Çin ABŞ-ın ən böyük potensiallı rəqibidir. Çin ordusu öz sayına görə (2,5 milyon) dünyada birinci hesab edilir.[67] ABŞ-da olan xüsusi korporasiyalar, xeyriyyə təşkilatları Çini öyrənmək üçün çoxlu miqdarda vəsait sərf edirlər.[68] ABŞ Mərkəzi Asiyada möhkəmlənməklə, Rusiya kimi Çini də əldə saxlamağa çalışır. Mərkəzi Asiyanın əksər ölkəsi "Sülh naminə tərəfdaşlıq" proqramının iştirakçısıdır, onlardan bəzisi isə NATO-nun tamhüquqlu üzvü olmağa çalışır. Çinin Şanxay Əməkdaşlıq Təşkilatı üzvləri ilə beynəlxalq əlaqələrini inkişaf etdirməsini də bu nöqteyi-nəzərdən izah etmək olar. ABŞ-ın Asiyada əsas strateji məqsədlərindən biri iki nəhəng dövlətin Çin və Rusiyanın antiamerikan hərbi-siyasi yaxınlaşmasına yol verməməkdir. Amerika tədqiqatçısı E.Rubinstayn "Rusiya və Amerika: rəqabətdən

---

65 Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. М.: Международные отнощения, 2003, s. 241.

66 Bjezinskiy, *a.g.e.*, s. 242.

67 Северо-Восточная и Центральная Азия. Динамика международных и межрегиональных взаимодействий*:* Учебное пособие / Под редакции А.Д. Воскресенского. М.: Российская политическая энциклопедия, 2004, s. 3-8.

68 Bogaturov, *a.g.e.*, s. 362.

barışığa doğru" kitabında yazır: "Rusiya Avrasiyanı zəbt edir, ABŞ-a, Avropaya və Yaponiyaya qarşı Çin Rusiya və İranla koalisiyaya daxil olacaq."[69] Çinin Rusiya ilə alyans yaratması Asiya-Sakit okean regionunda möhkəmlənmək üçün ABŞ-ı Çinlə tarixən ziddiyyətləri olan Yaponiyaya arxalanmağa sövq edir. Bununla bağlı olaraq Rusiya tədqiqatçısı N.Nartov qeyd edir: "ABŞ-ın Asiya-Sakit okean regionunda geopolitik hegemonluğuna Yaponiya-Çin alyansı son qoya bilər."[70] Çinə XXI əsrdə özünün geosiyasi rəqibi kimi baxan ABŞ hətta Çini zəiflətmək üçün Sintszyan-Uyğur Muxtar Dairəsində olan uyğur separatçılarını maliyyələşdirir, silahlandırır.[71] ABŞ Tayvanın Çinlə birləşməsi məsələsini tanımır. Beləliklə, Çin və ABŞ arasında olan ziddiyyətlər yalnız Çinin mülayimliyi ilə üzə çıxmır.

Şri Lankada olan şəraitin müzakirəsi zamanı Çin və Rusiya Təhlükəsizlik Şurasının gündəliyindən Şri Lanka ordusunun cinayətlərinə dair mümkün bir qərar qəbul etməyi çıxarmağı bacardı. 2009-cu il 13 may tarixdə çıxarılan mətbuat bəyanatında Təhlükəsizlik Şurasının üzvləri Şri Lankada "humanitar böhranın pisləşməsi ilə əlaqədar ciddi narahatlıq" ifadə etdilər və "vətəndaşların təhlükəsizliyini təmin etmək üçün bütün tərəfləri təcili fəaliyyət göstərməyə" çağırdılar.[72] BMT Baş katibi Pan Qi Mun bu qarşıdurma ilə əlaqədar daha çox fəal idi. BMT-nin mətbuat şərhləri göstərir ki, Baş katib bir neçə dəfə Şri Lanka şiddətini qınadı, bu ölkədəki humanitar şəraitə dair narahatlığını bildirdi və Şri Lanka hökumətini münaqişəni dayandırmağa çağırdı. Bundan əlavə, BMT-nin Ekspertlər Paneli yaradıldı və 25 aprel 2011-ci ildə Sri Lanka münaqişəsinin son mərhələləri ilə bağlı hesabat yayımlandı.[73] Həm Şri Lanka ordusu, həm də Tamil Eelam azadlıq qüvvələrinin ağır insan haqları pozuntuları törətdiklərini bəyan edərək, Ekspertlər Paneli silahlı münaqişələr zamanı sui-istifadələrə qarşı beynəlxalq müstəqil istintaqın aparılmasını tövsiyə etdi. Baş katib də istintaqı və Təhlükəsizlik Şurasının hərəkət etməsini istəyirdi. Rusiya və Çin tərəfindən veto hüququnun tətbiqinin ən son nümunəsi Suriyadakı vəziyyət və bu iki ölkənin müxalifəti ilə bağlıdır. BMT üzvləri 2011-ci il 27 aprel tarixdə Suriyadakı şəraiti müzakirə etmək üçün



69 Геополитика: Антология. М.: Академический Проект Культура, 2006, s. 15.
70 Nartov, *a.g.e.*, s. 272.
71 Александров М. Военно-политическая стратегия НАТО в Закавказье на примере Азербайджана // Россия и мусульманский мир, 2005, № 5, s. 61.
72 Sahar, *a.g.e.*, s. 17.
73 Sahar, *a.g.e.*, s. 18.

toplandıqda Böyük Britaniya və Fransa nümayəndələri bir qətnamə ilə razılaşa biləcəklərini ümid edirdilər.[74] Ancaq onlar Rusiyanın müqaviməti ilə qarşılaşdılar. Çin bu qətnamədən razı qalmadı. 2011-ci ilin iyun ayında Qərbi Avropa ölkələri yenidən Suriya məsələsini Təhlükəsizlik Şurasında müzakirə etməyə çalışdılar.[75] Çin və Rusiya Təhlükəsizlik Şurasının Yaxın Şərqin zəif bir bölgəsində strateji bir ölkəni sabitləşdirə biləcəyini dəstəkləməyəcəklərini açıq şəkildə bildirdilər.[76]

Nüvə problemi ilə bağlı İrana qarşı qəbul edilən qətnamələri Çin və Rusiya təhdid edirlər. Çünki İran Rusiya və Çinin əhəmiyyətli ticarət tərəfdaşlarıdır. İki ölkə gələcəkdə də İrana qarşı hərbi əməliyyata icazə verən hər hansı qətnaməyə veto qoyacak və ya bu cür qətnamələrin həyata keçirilməsinin qarşısını almaq üçün veto təhdidindən istifadə edəcəklər.

Veto hüquqlu dövlət digər daimi üzvlərə də təzyiq göstərə bilər. Veto hüququ  Fransa, Böyük Britaniya və çox gücə sahib olmayan Rusiyaya əhəmiyyətli güc verir. Qətnamə layihəsi müzakirə edildikdə daimi üzvlərin hər birinin mövqeyinin əhəmiyyətli olduğunu vurğulayan Avstraliya tədqiqatçısı Robert Hill Şimali Koreyanın Çin üçün əhəmiyyətli və ya İranın Rusiya və Çin üçün əhəmiyyətli olduğunu, Təhlükəsizlik Şurasının 5 daimi üzvünün hər birinin  marağında olmadığını bildirmişdir.[77]

ABŞ-ın son zamanlardakı xarici siyasətini  dəstəkləyən dövlət  Böyük Britaniyadır. O, Amerika üçün öz əhəmiyyətini hələ də saxlayır. Bununla bağlı olaraq Z.Bjezinski yazır: "Böyük Britaniya geostrateji fiqur deyil, gələcək Avropada liderliyə iddia etmir, ənənəvi olaraq Avropada tarazlıq yaratmağa çalışır. Siyasi birləşməni inkar edən Böyük Britaniya azad ticarət əsasında iqtisadi inteqrasiyaya, xarici siyasətin əlaqələndirilməsinə, Avropa İttifaqından kənarda təhlükəsizlik və müdafiəyə üstünlük verir, nadir hallarda Avropa İttifaqında öz nüfuzundan tam istifadə edir."[78]

74 *Aynı yer.*
75 *Aynı yer.*
76 *Aynı yer.*
77 Sahar, *a.g.e.*, s. 20.
78 Bjezinskiy, *a.g.e.*, s. 59.

Fransa yalnız Avropa İttifaqında deyil, həm də Aralıq dənizi ölkələrində, Şimali Afrikada — Mərakeşdə, Tunisdə, Əlcəzairdə öz nüfuzunu möhkəmlətməyə cəhd edir. Həmin regionlarda sülh və təhlükəsizliyin dəstəklənməsinə Fransa kontingenti rəhbərlik edir. Fransanın nöqteyi-nəzərindən vahid və müstəqil Avropanın yaradılması üçün başlıca məqsəd Fransanın rəhbərliyi altında Avropanın birləşdirilməsi və eyni zamanda Avropa qitəsində Amerikanın rəhbər rolunun təxminən məhdudlaşdırılması yolu ilə ola bilər. Əgər Fransa gələcək Avropanı yaratmaq istəyirsə, o, Avropa işlərində Amerikanın rolunu azaltmaq üçün Almaniyanı öz işinə cəlb etməlidir. Rusiya tədqiqatçısı A.D.Boqaturov yazır: "İraqla bağlı ixtilaf yarandıqdan sonra ABŞ Fransanı öyrənmək üçün strateji mərkəz yaratmışdır."[79] Soyuq müharibə dövrü başa çatdıqdan sonra Fransa heç bir veto qoymadı, lakin bu gücdən bir neçə dəfə istifadə etməklə təhdid etdi, istəmədiyi layihələrin gündəmə gətirilməsinin qarşısını aldı. Ən mühüm nümunə 2003-cü ildə Fransanın İraqda müharibəyə gətirib çıxaracaq hər hansı bir qətnaməyə veto qoyma təhdidini misal göstərmək olar.[80] 2010-cu ilin noyabr ayında Qərbi Saxarada olan etirazlara qarşı Mərakeş  qüvvələr tətbiq etdi. Fransa müttəfiqi Mərakeşə dəstək verməyə çalışdı. Fransa veto tətbiq etməklə BMT Təhlükəsizlik Şurasının üzvlərinə Mərakeş ordusunun cinayətlərini araşdırmaq üçün Təhlükəsizlik Şurasının qətnamə qəbul etməsinə mane ola bilərdi.[81] Lakin Fransa "cib vetosu"ndan istifadə edərək qətnamənin müzakirəyə gətirilməsinə mane oldu. Təhlükəsizlik Şurasının fəaliyyətinin təhlili göstərir ki, Rusiya və Çin digər üzvlərdən daha çox "cib vetosuna" əsaslanırlar, yəni istəmədikləri layihənin gündəliyə gətirilməsinin qarşısını alırlar.

Beləliklə, Təhlükəsizlik Şurasının daimi üzvləri arasında geosiyasi ziddiyyətlər mövcuddur və Təhlükəsizlik Şurası hər hansı sanksiya barədə qərar vermək istədikdə sözsüz ki, veto qoymaq hüququ olan dövlət öz maraqlarını ifadə edəcəkdir. BMT Nizamnaməsinə əsasən Təhlükəsizlik  Şurasının daimi üzvlərinin qarşılıqlı məsləhətləri birgə fəaliyyət üçün vacib məsələlərdəndir. Nizamnamənin 49-cu maddəsində yazılır: "BMT

79 Bogaturov, *a.g.e.*, s. 362.
80 Sahar, *a.g.e.*, s. 16.
81 Sahar, *a.g.e.*, s. 17.

üzvləri Təhlükəsizlik Şurası tərəfindən qərara alınmış tədbirlərin həyata keçirilməsində bir-birinə qarşılıqlı kömək etmək üçün birləşməlidirlər."[82] Lakin daimi üzvlər arasında yekdil fikrin olmaması və onların veto hüququndan istifadə edərək özlərinin geosiyasi maraqlarını həyata keçirməsi regional və ya beynəlxalq münaqişələri nizama salmaq üçün veto hüququnun ləğv edilməsi, yaxud saxlanılması məsələsinin araşdırılmasını aktual edir.

Aparılan tədqiqatlar belə bir nəticəyə gəlməyə imkan verir ki, veto hüququnun ləğv edilməsinə daimi üzvlər heç zaman razı olmazlar. Bu hüququn ləğv edilməsi üçün Baş Məclisin 1950-ci ildə qəbul etdiyi "Sülh naminə əməkdaşlıq" adlı qətnaməsini həyata keçirmək lazımdır. Bu qətnaməyə əsasən hər hansı bir problem barədə Təhlükəsizlik Şurasında razılıq əldə edilməzsə, BMT silahlı qüvvələri yaradılana qədər üzv dövlətlərə müvafiq tədbirlər görmək səlahiyyəti verilir.[83]

## NƏTİCƏ

Daimi üzvlərin veto hüququ BMT Təhlükəsizlik Şurasının fəaliyyətinin ən böyük qüsurlarından biridir. Bu veto gücü qurumu qeyri-demokratik etmiş, siyasi diskussiya klubuna çevirmişdir. Daimi üzvlər veto hüququndan bir-birinə qarşı diplomatik-siyasi mübarizədə siyasi silah kimi istifadə edirlər. Təhlükəsizlik Şurasının daimi üzvləri arasında geosiyasi maraqların təmin olunmasından doğan ziddiyyətlərin mövcud olması BMT mexanizmində veto hüququnun olması və qərarların qəbul edilməsində qeyri-demokratik səsvermə sisteminin mövcudluğu beynəlxalq və regional münaqişələrin nizama salınmasına mane olur. Nəticədə maraqlarını təmin etmək üçün veto hüququndan istifadə edən və onların əleyhinə olan dövlətlərin fəaliyyətində ikili standartlar yaranır. Təhlükəsizlik Şurasında öz veto hüququndan istifadə edərək bu dövlətlərin ərazi bütövlüyü və suverenliyi barədə qətnamələrin qəbul edilməsinə veto qoyması da göstərir

82 BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, *a.g.e.*, s. 31.

83 Организация Объединенных Наций, Сборник документов / Отв. ред. В.В.Вахрушев. М.: Наука, 1981, s. 136; "Резолюции 5-й сессии (1950 год), A/RES/377 (V) 3 ноября 1950 года. Единство в пользу мира", *un.org*, http://www.un.org/russian, (Giriş Tarixi: 25.12.2017).

ki, veto hüququnun olması BMT-də dövlətlərin suveren bərabərliyi prinsipini pozur. Veto hüquqlu ölkələr iddialarını reallaşdırmaq üçün bütün qanuni və qanunsuz vasitələrdən istifadə edir və bu zaman beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər bəzən ikinci dərəcəli əhəmiyyət kəsb edir. İkincisi, Təhlükəsizlik Şurasının daimi və müvəqqəti üzvləri Soyuq müharibə dövrünə uyğun regionlar üzrə seçilirlər və bu seçimdə ədalətsizlik aydın görünür. Afrika ölkələrindən ibarət olan 54 üzvlü Afrika qrupundan 3 müvəqqəti üzv var, heç bir daimi üzv yoxdur. 53 üzvü olan Asiya-Sakit okean qrupundan 2 müvəqqəti üzv, 1 daimi üzv (Çin Xalq Respublikası) var. 33 üzvlü ən sıx üçüncü qrup olan Latın Amerikası və Karib qrupu dövlətlərinin Təhlükəsizlik Şurasında heç bir daimi üzvü yoxdur, yalnız 2 müvəqqəti üzvü vardır. Şərqi Avropa və Qafqazda olan ölkələrin meydana gətirdiyi 23 üzvlü Şərqi Avropa qrupunun 1 müvəqqəti, 1 daimi üzvü (Rusiya Federasiyası) var. Ən kiçik ikinci qrup olan 28 üzvlü Qərbi Avropa və digərləri qrupuna daxil olan dövlətlərin 3 daimi üzvünün (ABŞ, Böyük Britaniya və Fransa) və 2 müvəqqəti üzvünün olması diqqəti çəkir. Qeyd etmək lazımdır ki, bu qrupda Qərbi Avropa ölkələrindən başqa Avstraliya, Kanada, İsrail, Yeni Zelandiya və Türkiyə də vardır. ABŞ bu qrupda müşahidəçi statusundadır. BMT üzvü olub heç bir qrupa daxil olmayan dövlətlər, yəni müşahidəçi dövlətlər (Fələstin) və mübahisəli bölgələr (Şimali Kipr Türk Respublikası) kateqoriyaları da vardır. Onlar da Təhlükəsizlik Şurasında təmsil edilmirlər. Göründüyü kimi müsəlman dövlətlərindən Təhlükəsizlik Şurasında heç bir daimi üzv yoxdu. Üçüncüsü, sürətlə silahlanmanın artması, münaqişə yaşayan dövlətlərə silah satma marağı münaqişələrin nizama salınmasında Təhlükəsizlik Şurasının öz məsuliyyətini yerinə yetirməsinə imkan vermir. Silahların tənzimlənməsinə görə Təhlükəsizlik Şurası məsuliyyət daşıyır. Eyni zamanda ən çox silah ixrac edən dövlətlər Təhlükəsizlik Şurasının daimi üzvləridirlər. Daimi üzvlər adi silahların istehsalının 71 faizində məsuliyyət daşıyırlar və silah satışında maraqlı olduqları üçün daimi üzvlər veto hüququndan yararlanaraq münaqişələrin həlli prosesini ləngidirlər. Dördüncüsü, Baş Məclis və Təhlükəsizlik Şurası üzvlərinin sayı arasında qeyri-bərabərlik Təhlükəsizlik Şurasının əsas qüsurlarından biridir. Baş Məclisdə 193 dövlət var, Təhlükəsizlik Şurasında 15 dövlət təmsil olunur. Bunlardan 5 daimi üzv dünyanı idarə edir.

## KAYNAKÇA

"'Попытка продемонстрировать влияние', почему США сократили индивидуальный взнос в бюджет ООН", *Russian. rt.com*, https://russian.rt.com/world/article/464228-ssha-oon-shantaj, (Giriş Tarixi: 25.12.2017).

"Resolution 1483 (2003) Adopted by the Security Council at its 4761st meeting, on 22 May 2003", *UN Documents*, https://documents-dds-ny.un.org/doc, (Giriş Tarixi: 17.10.2014).

"UN General Assembly Adopts Resolution Affirming Ukraine's Territorial Integrity", *Xinhua.net*, 28 Mart 2014, http://web.archive.org/web/20160304092536/http://news.xinhuanet.com/english/world/2014-03/28/c_126325576.htm, (Giriş Tarixi: 17.10.2014).

"Yaratılışta Eşitlik Var", *KADEM*, http://kadem.org.tr/recep-tayyip-erdogan-ii-kadin-ve-adalet-zirvesinin-acilisinda-konustu-yenigun/, (Giriş Tarixi: 25.11.2016).

"Резолюции 5-й сессии (1950 год), A/RES/377 (V) 3 ноября 1950 года. Единство в пользу мира", *un.org*, http://www.un.org/russian, (Giriş Tarixi: 25.12.2017).

"Споры по Крыму в Совбезе ООН:США говорили о санкциях, а Россия – о правах", *Glavred*, http://glavred.info/politika/spory-po-krymu-vsovbeze-oon-ssha-govorili-o-sankciyah-a-rossiya-o-pravah-274140.html, (Giriş Tarixi: 17.10.2014).

*Basic Facts about the United Nations*, Published by United Nations Departement of public information, New York 2000.

*Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi*, Bakı, BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi.

DADAŞOVA, R.B., *Beynəlxalq Münasibətlərin Müasir Problemləri və BMT*, Təknur, Bakı 2011.

ÖRMECİ, Ozan, "Birleşmiş Milletler Güvenlik Konseyi ve Bölgesel Gruplar", *Ydemokrat*, http://ydemokrat.blogspot.com/2014/10/birlesmis-milletler-guvenlik-konseyi-ve.html, (Giriş Tarixi: 17.10.2014).

SAHAR, Okhovat, *The United Nations Security Council: Its Veto Power and Its Reform, The Centre for Peace and Conflict Studies,* Cilt: 15, Sayı: 1, Australia 2012.

ZORGBIBE, Charles, *La France, L'ONU et le maintien de la paix*, Press Universitaires de France, Paris 1996.

АЛЕКСАНДРОВ, М., Военно-политическая стратегия НАТО в Закавказье на примере Азербайджана // Россия и мусульманский мир, 2005, № 5, s. 55-67.

БЖЕЗИНСКИЙ, Збигнев, Великая шахматная доска (Господство Америки и его геостратегические императивы) Перевод О. Ю. Уральской М.: Междунар. отношения, 1998.

Геополитика: Антология. М.: Академический Проект Культура, 2006.

ЖИЛЬЦОВ, С.С., Зонн И.С., США в погоне за Каспием. М.: Международные отнощения, 2009.

ЖИЛЬЦОВ, С.С., ЗОНН И.С., УШКОВ А.М. Геополитика Каспийского региона. М.: Международные отнощения, 2003.

КИССИНДЖЕР, Генри, Нужна ли Америке внешняя политика? / Пер. с англ. под ред. В.Л. Иноземцева. М.: Ладомир, 2002.

КОРТУНОВА С. В., Мировая политика в условиях кризиса: Учебное пособие / под редакцией М.: Аспект Пресс, 2010.

*ЛАНЦОВА, С.А.-В.А. Ачкасова*, Мировая политика и международные отнощения: *Учебное пособие / под редакцией М.: Питер Пресс, 2008.*

НАКАШИДЗЕ, Б., ООН: некоторые аспекты реформирования // Власть, 2005, № 6, s. 56-64.

НАРТОВ, Н.А., Геополитика: Учебник для вузов / Под ред. проф. В.И.Староверова. М.: Единство 2003.

НЕШАТАЕВА, Т.Н., Международные *организации и право. Новые тенденции в международно-правовом регулировании*. М.: Дело, 1999.

Организация Объединенных Наций, Сборник документов / Отв. ред. В.В. Вахрушев. М.: Наука, 1981.

ПАНАРИН А.Ф. Стратегическая нестабилность в XXI веке. М.: Алгоритм, 2003.

Переписка председателя Совета Министров СССР с президентами США и премьер министрами Великобритании во время Великой Отечественной войны 1941-1945гг.: в 2 томах, Переписка с У. Черчиллем И.К. Эттли, Т1 (июль 1941г.-ноябрь 1945г.), М.: Политической литературы, 1986.

Резолюция принятая Генеральной Ассамблеей 8 сентября 2000 года, Декларация тысячелетия Организация Объединенных Наций, http: // www.un.org/russian, (Giriş Tarixi: 25.12.2017).

Северо-Восточная и Центральная Азия. Динамика международных и межрегиональных взаимодействий*:* Учебное пособие / Под редакции А.Д. Воскресенского. М.: Российская политическая энциклопедия, 2004.

Современная мировая политика: Прикладной анализ / Отв. Ред. А.Д.Богатуров. М.: Аспект Пресс, 2010.

Современные международные отношения: *Учебник / Под ред. А.В.Торкунова, М.: Российская политическая энциклопедия, 2000*.

УТКИН, А.И., Дипломатия Франклина Рузвельта. Свердловск: Издательство Урал. Университета, 1990.

ФЕДОРОВ, В.Н., Ефимов Г.К. ООН и поддержание международного мира. М.: Знание, 1969.

ФЕДОРОВ, В.Н., Совет Безопасности ООН. М.: Международные отнощения, 1965.

ФЕДОТОВ, Ю.В., Современные вызовы многосторонности и ООН // Международная жизнь, 2004, № 3.

ШИБАЕВА, Е.А., *Право международных организаций. Вопросы теории*. М.: Международные отношения, 1986.

## Structured Abstract

Each representing state in the UN have got the right to vote regardless of their size, population or strenth. Each of the member has a right to express its position in front of the world. But in most cases on account of the interests of the states with the right of veto the rights of small states are limited. From this point of view, the actuality of this research is the identification of which reforms to conduct in the UN in order to prevent the permament members with the right of veto to influence the adoption of resolutions in favor of their national interests and obtaining results of this identification.

Another important issue to be analyzed is the increasing rol of the merged efforts of the world states in maintaining the international security system rather than by one hegemon state in the scope of the period of transition from unipolar to multipolar World.

It is being obserwed that the USA is trying to take the control over adoption of decisions in the UN, by violating the principle of equality of all member states. Not only the US, but the attitutes of the other permament members such as Russian Faderation and China are also contrary to the main principles of the UN. Such attitutes can lead to the fiasco of the UN which is already losing its influence. The processes started by the USA under the name of "Arab Spring" is aimed to occupy the Middle East which is rich of energy resources and located in advantageous geographic-political location. Meanwhile, Russia doesn't give up its claims of recovering his dominancy over the new independent republics. Russia tries to take advantage for its geopolitical, geo-economic and other interests by using its mediation mission for Southern Caucasus conflicts, as well as Nagorno-Karabakh conflict created by the military aggression of Armenia. Russia violates the territorial integrity of Georgia by recognizing the independency of Abkhazia, Southern Ossetia and violates the integrity of Ukraine by occupying the Crime, tries to take control of the conflict in Moldavia, Trans Dniester region. The UN system has got a mechanism to resolve

these conflicts in accordance with the international law norms through the imposition of sanctions against the guilty party, make the governments to comply with the international law norms for the steady development of the international relationships. In order to prevent the problems threatening the international security and to develop balanced international relations, it is necessary to the investigate the conduction of an effective reform of the improvement of activities of the main organs of the UN such as General Assembly, Security Council, Economic and Social Council, Secretary and International Court.

The right of veto of permanent members is one of the main topics which have been discussed intensively during the last years. İt can be said that this power turned the organization into non-democratic, political-diplomatic discussion club. Permanent members are using the right of veto as a political weapon when strugling against each other. Existence of contradiction among the permanent members of the UNSC emerging from not satisfaction of geopolitical interests, having the right of veto in the the UN mechanism and non-democratic voting in adoption of decisions are all affecting the process of the adjustment of international and regional conflicts.

The second, permanent and temporary members of the UNSC are selected from the regions according to the Cold War period and injustice is clearly seen in this distribution of rights. The African group comprising 54 African countries members doesn't have any single permanent member in the SC. It has got just 3 temporary members. 53 membered Asia Pacific group (Cyprus Republic is also in this group) has 1 permanent (Chine Republic), 2 temporary members. 33 membered the toughest third group of Latin American and Caribbean doesn't have any permanent member, it has got only 2 temporary members and it is the most ineffective group. 23 membered Eastern Europe Group, comprising of the Eastern Europe and Caucasus countries has the right of having 1 permanent (Russia Federation) and 1 temporary member. The states of the smallest 28 membered group of the Western Europe and others having 3 permanent members (the USA, Great

Britain, France) and 2 temporary members involves attention. Along with the Western Europe states, Austria, Canada, Israel, New Zealand and Turkey are also in this group. The USA, which is not a standalone member of any other group is the monitoring member of this group. No any Muslim country has a permanent member in the Security Council.

The third, rapid increase of armament, interest of selling weapons to the conflicting countries don't allow the UNSC to fulfill its responsibilities. The UNSC is accountable for regulation of arming. At the same time, most weapon selling states are permanent members of the UNSC. The permanent members delay resolution of conflicts by abusing veto right for their interest of selling weapons.

The fourth, inequality between numbers of members of the UNSC and GA is one of the main problems of the UN system.

There are 193 states in the GA, 15 states are represented in the UNSC. 5 permanent states out of these 15 control the world. Temporary states have limited responsibilities. Even if 14 members decide to vote in favour of any decision it can't be adopted just because of the veto imposed by any permament member during the adoption process. If 9 members including 5 permanent members vote in favor of any decision it will be adopted although other six members vote against it.